

**Cəlilov Elcan Famil oğlu**

Elcan Famil oğlu Cəlilov 27 aprel 1996-cı ildə Tovuz şəhərində anadan olub. 2003-2014-cü illərdə A.S. Puşkin adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb. 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Elcan Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Elcan Cəlilov noyabrın 7-də Xocavənd döyüşləri zamanı şəhid olub. Tovuz şəhərində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.